# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №18 (58) • 04.07.2011


AzadliqRadiosu.az


**Pensiyalar 40% artırıldı** səh.2

**Bakıda əcnəbi jurnalistləri döyənlər kimlərdir?** səh.3

**Salyanda zorən abadlaşdırma** səh.6

Samuxda faciə: **İraqdan sağ dönən əsgərimiz xəstəxanada dərman olmadığı üçün ölüb** səh.9

**Masallıda tərəvəz sahələrdə çürüyür** səh.12

Əkrəm Əylisli: **"Bizim də, ermənilərin də mövqeyində ədalətli məqamlar var"** səh.13

**Laricani Bakıda hansı mesajları verdi?** səh.14


## Goranboyda şikayətçi icra hakimiyyətinə niyə silahla gedib?




səh.12

## Пресса России - о Карабахском конфликте

«Война станет тем более реальной, если в своей миротворческой роли разочаруется Москва. А это может случиться, учитывая, что с осени 2009 года Дмитрий Медведев организовал уже девять встреч Сержа Саркисяна и Ильхама Алиева, но итоги переговоров в Казани показали, что результата это не приносит», заключатся в статье «Русского Репортера».

səh.7




F.Bədəlbəyli: **«Şuşada gördük ki, Qarabağa benzin daşıyan bütün maşınlar İran nömrəlidir»** səh.2

Avropa Bankı: **Azərbaycanda korrupsiya daha çoxdur** səh.4

Əli Həsənov: **«Azərbaycanda iqtidarla müxalifət arasında dialoq var»** səh.5

# «Azərbaycana və Ermənistana əlavə təkliflər veriləcək»


Alen Jüpe

*Dağlıq Qarabağ münaqişəsi tərəflərinə razılıq əldə etmək üçün əlavə təkliflər təqdim olunacaq. Fransanın Xarici İşlər naziri Alen Jüpe «Exo Moskvı» radiostansiyasına müsahibəsində belə açıqlama verib. Jurnalistin «Qarabağ problemi həmişəlikdirmi, həlli yoxdurmu» sualına fransalı nazir belə cavab verib: «Niyə ki? Əlbəttə, mən Rusiya prezidentinin bu məsələ ilə bağlı Soçidə, Kazanda göstərdiyi bütün səyləri alqışlayıram. Amma bunlar heç bir nəticə vermədi, bu, kədərlidir. Amma mənim bildiyimə görə, bu məsələdə hər hansı razılığa gəlmək üçün indi tərəflərə əlavə təkliflər irəli sürüləcək».*

Hazırda Dağlıq Qarabağ danışıqları 2007-ci ilin noyabrında təklif olunmuş «Madrid prinsipləri»əsasında aparılır. 2009-cu ilin dekabrında «Madrid prinsipləri» yenilənib və rəsmi Bakı bu sənədi qəbul etdiyini açıqlayıb.

***Media Forum***

# Pensiyalar 40% artırıldı

*Azərbaycanda 2006-cı il yanvarın 1-dək pensiyaya çıxan şəxslərin pensiyasının orta hesabla 40% artırılmasını nəzərdə tutan «Əmək pensiyaları haqqında» qanuna edilən dəyişikliklər iyulun 1-dən qüvvəyə minib. Dəyişikliyə əsasən, bu kateqoriyadan olan insanların pensiyaları iş stajının hər ili üçün 1.94 manat müəyyən edilməklə hesablanacaq. Yəni təkrar hesablama nəticəsində staj 1.94-ə vurulacaq və alınan rəqəmə 85 manat baza pensiyası əlavə olunacaq.*


Artımların maliyyələşməsi üçün tələb olunan illik vəsait 390 mln. manat təşkil edir

Bu dəyişiklik 2006-cı il yanvarın 1-dən 2010-cu il yanvarın 1-dək pensiyaya çıxmış şəxslərə də şamil olunacaq. Bu dəyişiklik dövlət qulluqçuları, hərbi qulluqçular, ədliyyə, məhkəmə, daxili işlər və prokurorluq orqanları işçiləri istisna olmaqla, bütün kateqoriyalı pensiyaçılara şamil olunur.

# Nemət Pənahlının əmlakı hərraca çıxarılır


Nemət Pənahlı

*Bu barədə AzadlıqRadiosuna Nemət Pənahlının qardaşı Səməd Pənahlı məlumat verib. Onun sözlərinə görə, Nemət Pənahlı həbs ediləndən sonra onun adına olan mağaza əllərindən alınıb. İki gün əvvəl isə 1 saylı İnzibatı İqtisad Məhkəməsindən həmin mağazanın hərraca çıxarılıb satılması ilə bağlı keçiriləcək məhkəmə prosesində iştirak etməsi ilə bağlı qardaşının adına bildiriş gəlib: «Mağaza boşaldılıb əlimizdən alınandan sonra Vergilər Nazirliyndən gəldilər Nemət Pənahlının adına 400 manat cərimə yazdılar. İki gün əvvəl isə Bakı Şəhər 1 saylı İqtisad Məhkəməsindən Nemətin adına bildiriş gəlib. Həmin bildirişdə qeyd olunub ki, sizi həmin mağazanın açıq hərraca çıxarılıb satılması ilə bağlı iyulun 13-də keçiriləcək məhkəmə prosesinə dəvət edirik».*

Səməd Pənahlı bunu ailələrinə qarşı təzyiq hesab edir. Təzyiqlərin günbəgün artdığını bildirən Səməd Pənahov deyir ki, onlar Türkiyədən siyasi sığınacaq istəməyə hazırlaşırlar. Qardaşının həbsinə qədər hər hansı xəstəlikdən əziyyət çəkmədiyini bildirən Səməd Pənahlı deyir ki, indi o, şəkər xəstəliyinə tutulub. İyunun 17-də Nəsimi Rayon Məhkəməsi Azərbaycan Milli Dövlətçilik Partiyasının sədri, xalq hərəkatının liderlərindən biri olmuş Nemət Pənahlını 6 il müddətinə azadlıqdan məhrum edib.



F.Bədəlbəyli:

# «Şuşada gördük ki, Qarabağa benzin daşıyan bütün maşınlar İran nömrəlidir»

**Bakı Musiqi Akademiyasının rektoru, xalq artisti Fərhad Bədəlbəyli AzadlıqRadiosuna müsahibəsində deyir:**

- Ordu çox qüvvətlidir. Paradda da şahidi oldunuz ki, hər şey var, özü də ən yüksək səviyyədə. Vətənpərvərlik də güclüdür. Əsgərlərin hamısı da nə vaxt Qarabağa keçəcəklərini soruşurlar. Kazan görüşündən sonra isə bəlli olur ki, Ermənistan heç bir kompromisə gedən deyil.

Sülh variantı da belədir ki, BMT-yə müraciət olunmalıdır. Onlara ultimativ şəkildə demək lazımdır ki, siz də bu problemi həll edə bilmirsinizsə, onda hərbi yolla torpaqları qaytarmaq haqqımızdan istifadə edəcəyik. Heç olmasa, bütün sülh imkanlarından istifadə olunduğunu göstərməliyik. Halbuki Liviyaya qarşı öz qətnaməsini bir həftə ərzində hərəkətə gətirən BMT-nin Azərbaycan torpaqları ilə bağlı 4 qətnaməsi var. 20 ildir onları heç yada salan yoxdur. Azərbaycana münasibət belədir.

İran ən yaxın qonşumuzdur. Amma biz Şuşada olanda gördük ki, Qarabağa benzin daşıyan bütün maşınlar İran nömrəlidir. Şimaldan, Qərbdən elə, Cənubdan da belədirsə, biz kimdən dəstək alaq. Nə isə...

**Fərhad Bədəlbəyli ilə müsahibənin tam mətnini AzadliqRadiosu.az saytında oxuyun.**




**ƏN AKTUAL VƏ ƏN MARAQLI MÜZAKİRƏLƏR AZADLIQRADİOSUNUN İŞDƏN SONRA VERİLİŞİNDƏ**

# Bakıda əcnəbi jurnalistləri döyənlər kimlərdir?


Ehsan Zahidov

**ABŞ vətəndaşı, jurnalist Amanda Erikson və Böyük Britaniya vətəndaşı, hüquq müdafiəçisi Silviya Devisi döyməkdə günahkar bilinən dörd nəfərin hamısı həbs edilib. İstintaq getdiyini əsas gətirən Daxili İşlər Nazirliyi hələ hadisənin tam təfərrüatı ilə bağlı məlumat vermir.**

Nazirliyin sözçüsü Ehsan Zahidovun AzadlıqRadiosuna deməsinə görə, ilkin dindirmə zamanı saxlanan gənclər etiraf ediblər ki, onlar qızlarla tanış olmaq istəyiblər. Nəticədə belə xoşagəlməz hadisə baş verib: "Bütün bunlar hamısı ilkin dindirmələrin nəticəsidir. İstintaq davam edir və sonda tam məlum olacaq ki, məsələ nə yerdə imiş".

Ehsan Zahidov burda başqa bir səbəbin olmadığını deyir.

**AÇIQ-SAÇIQ GEYİM?**

Amma "Yeni Müsavat" qəzetinin yazdığına görə, Ehsan Zahidov onlara


Emin Hüseynov

müsahibəsində - "Əcnəbi jurnalistlər də bizim millətin xanımlarından fərqli olaraq açıq-saçıq geyinirlər", -deyə fikir də səsləndirib. Amma o, AzadlıqRadiosunun bu məsələ ilə bağlı sualına cavab olaraq deyib ki, kimin necə geyinməsi onun öz işidir: "Sən onlara deyə bilməzsən ki, niyə gödək geyinmisən və niyə şalvar geyinmişən. Geyim insanların şəxsi işləridir, mənə elə gəlir ki, geyim söhbətinə heç toxunmaq lazım deyil" .

Adıçəkilən əcnəbi xanımların Azərbaycanda əməkdaşlıq etdiyi Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutunun rəhbəri Emin Hüseynov isə hücuma məruz qalan xanımların, ümumiyyətlə, hər hansı qıcıqlandırıcı geyimdə olmadıqlarını deyib: "Xanımların geyimləri qıcıqlandırıcı olmayıb, onlar normal klassik paltarlarda olublar".

Emin Hüseynova görə, digər tərəfdən üzərlərindəki pul və zinət əşyalarına toxunulmadan xanımlara qarşı zorakılıq edilməsi onlarda xeyli suallar yaradıb.

Yasamal polis idarəsində saxlanan gənclərlə görüşən hüquq müdafiəçisi Elçin Behbudov isə deyir ki, gənclərin dördü də hadisəni törətdiklərini etiraf ediblər: "Saxlananlardan biri – Adil Tağızadə dedi ki, o, telefonunu qızlardan birinə uzadıb ki, nömrəsini yazsın, qız da telefonu yerə çırpıb. Deyir ki, mən də hirsləndim və qıza "podnoşka" verib yıxdım yerə. Sırf sataşmaq, tanış olmaq məqsədi olub burda".

**ƏLİ HƏSƏNOV: "BU MƏSƏLƏDƏ SİYASİ MOTİV AXTARMAQ DÜZGÜN DEYİL"**

Prezident Administrasiyası ictimai-siyasi şöbəsinin müdiri Əli Həsənov da hesab edir ki, bu məsələdə siyasi, yaxud digər motiv axtarmaq düzgün deyil. Şöbə müdiri APA informasiya agentliyinə müsahibəsində deyib ki, bu, sadəcə, bir qrup gəncin hərəkətindən başqa bir şey deyil.

**NİYƏ JURNALİST VƏ HÜQUQ MÜDAFİƏÇİSİ?**

Rəsmi qurumlar və şəxslər hadisənin mahiyyətində hər hansı siyasi motiv olmasını təkrar-təkrar təkzib etsələr də, yenə də cavabsız qalan suallar var. "Yeni Nəsil" Jurnalistlər Birliyinin sədri Arif Əliyevə görə, hətta günahkarlar tapılsa, onlar etiraf etsələr belə, jurnalistə, hüquq müdafiəçisinə qarşı hücum xeyli suallar yaradır: "Nədənsə elə çanaq həmişə bu cür adamların başında çatlayır". Döyülən xanımlar da polisə ifadə veriblər. Amma onlar hadisənin necə baş verməsi barədə jurnalistlərin suallarına cavab vermirlər.

***Maarif Çingizoğlu***


Təzəxən Mirələmli
2 aprel aksiyasından sonra

# AXCP-nin Cəlilabad rayon təşkilatının sədrini polis saxlayıb

AXCP-nin Cəlilabad rayon təşkilatının sədri Təzəxən Mirələmli saxlanılıb. Həbsdə olan oğluna ərzaq payı aparan AXCP funksioneri T.Mirələmli Cəlilabad polisində zorakılıqla üzləşdiyini idda edir. Hazırda Cəliabad rayon polis bölməsində saxlanılan T.Mirələmlinin AzadlıqRadiosuna verdiyi məlumata görə, hadisə iyulun 3-ü səhər saatlarında baş verib. Onun deməsinə görə, oğluna ərzaq payı verməк istəyərkən polis bölməsində pis rəftarla qarşılaşıb. Bir qədər mübahisədən sonra rəis müavini onun qarın və sifətinə zərbələr endirib. T.Mirələmli deyir ki, o, zorakılığa məruz qaldığı halda, polis bölməsində yalançı şahidlərin ifadələri əsasında akt tərtib edərək onu polis şöbəsində saxlayıblar: «Mən oğluma yemək gətirmişdim, dedilər get saat 10-da gəl, həmin vaxt getdim, yenə qəbul eləmədilər. Hiss elədim ki, pul istəyirlər. Dedim mən qanunla yemək gətirmişəm, dedilər əgər elədirsə, onda get 3 saatdan sonra gələrsən. Bir az mübahisə oldu, yeməyi qəbul edən adam mənə dedi ki, rədd ol burdan və bu zaman rəis müavini Eldar Səfərov gəldi, mənim qarnıma və sifətimə vurmağa başladı. Sifətimdə izlər qalıb».

Rəis müavini Eldar Səfərov T.Mirələmlinin saxlandığını təsdiqləsə də, ona qarşı zor işlədilməsi barədə məlumatların yalan olduğunu deyir. Rəis müavininin sözlərinə görə, T.Mirələmli ictimai qaydanı pozduğuna görə saxlanılıb:« Onu heç kim vurmayıb. İndi yaydığı şəkil bir ay bundan əvvəlki şəkildir. Əgər onun sifətini görmək istəyirsinizsə, sabah onun məhkəməsi olacaq, gəlib baxa bilərsiniz».

T.Mirələmli müxalifətin 2 aprel aksiyasında döyülüb və bir müddət müalicə alıb. Bu müddətdə onun oğlu məktəb yoldaşını bıçaqlayıb. İndi o, həbsdədir.

***Maarif Çingizoğlu***

# Avropa Bankına görə Azərbaycanda korrupsiya daha çoxdur

**Korrupsiyanın səviyyəsi keçid dövrü ölkələri arasında Azərbaycanda ən yuxarıdır. Bu, Avropa Yenidənqurma və İnkişaf Bankının gəldiyi qənaətdir. Bank 33 ölkədə apardığı sorğunun nəticələrini bu günlərdə elan edib. 40 minə yaxın ailənin cəlb edildiyi bu sorğunun Azərbaycana aid olan hissələrini təqdim edirik:**

### BÖHRANIN TƏSİRİ

Azərbaycanda rəyi soruşulanların 55 faizi bildirib ki, beynəlxalq maliyyə böhranı onların dolanışıq mənbələrinə təsir edib. Bu da keçid regionu ölkələrindəki ümumi göstəricidən yuxarıdır. Böhran xüsusilə də az gəlirli təbəqələrə təsir edib.

### HƏYATINDAN MƏMNUNLUQ

2006-cı illə müqayisədə həyatından məmnun olanların sayı artıb. Sorğuda iştirak edənlərin 40 faizi həyatından razı olduğunu bildirib. Razı qalanlar əsasən orta gəlirli adamlardır. Sorğu iştirakçılarının yarıdan çoxu ölkənin ümumi sosial-iqtisadi vəziyyətinin 2006-cı ildən daha yaxşı olduğunu qeyd edib.

Həmçinin əksəriyyət gələcək nəsillərin indikindən daha yaxşı yaşayacağına əmin olduğunu bildirib. Amma yaşı 60-dan yuxarı olan və yüksək gəlirli insanlar gənc nəslin gələcəyi barədə o qədər də optimist deyillər.




### DEMOKRATİYA VƏ AZAD BAZAR MƏSƏLƏLƏRİNƏ YANAŞMALAR

Sorğuda iştirak edənlərin 50 faizi ölkənin siyasi və iqtisadi sistemində demokratiya və azad bazar prinsiplərinin tətbiq edilməsinin lazım olduğunu deyib. Amma 10 faizi planlı iqtisadiyyat və avtoritar hökumətə üstünlük verdiyini bildirib. Onların hər üç nəfərindən ikisi hesab edir ki, ölkədə güclü iqtisadi inkişaf xatirinə siyasi azadlıqların məhdud olmasına hazırdırlar.

Amma vətəndaşlar arasında ölkədəki siyasi və iqtisadi vəziyyət barədə fikir ayrılıqları çoxdur. Onların hər üç nəfərindən biri ölkədə siyasi azadlıqların təmin edildiyini və iqtisadiyyatın çiçəkləndiyini, üçdə-biri siyasi azadlıqların az olduğunu, amma iqtisadiyyatın güclü inkişaf etdiyini, üçdə-biri isə çox az sahələrdə azadlıqlar olduğunu, iqtisadiyyatın da zəif inkişaf etdiyini düşünür.

Rəyi soruşulanların çox az hissəsi hesab edir ki, ölkədə əsas demokratik institutlar var.

### ÜMUMİ VƏ AYRI-AYRI QURUMLARA İNAM

İnsanlar başqalarına o qədər etibar etmirlər. Respondentlərin hər dörd nəfərindən biri qeyd edib ki, ümumiyyətlə, insanlara inanmaq olar.

Buna baxmayaraq, dövlət qurumlarına inam Qərbi Avropa göstəricisindən daha yuxarıdır. Respondentlərin yarıdan çoxu prezidentə və silahlı qüvvələrə inandığını bildirir.




### KORRUPSİYA GÖSTƏRİCİSİ

Azərbaycanda korrupsiya bütün sahələrdə keçid dövrü ölkələrindəki vəziyyətdən daha yuxarıdır. Korrupsiya bu ölkədə davamlı olaraq genişlənir. Respondentlərin yalnız 18 faizi hesab edir ki, 2006-cı ildən bu yana ölkədə korrupsiyanın səviyyəsi azalıb. Onların yarıdan çoxu məmurlara işi düşəndə pul verdiyini bildirib. Bu təcrübə ölkədə bütün sahələrdə, xüsusilə də səhiyyədə geniş yayılıb. Yol polisində, bürokratik aparatda və məhkəmələrdə pul verənlərin yarıdan çoxu bildirir ki, rüşvəti onlardan tələb edirlər, ya da gözləyirlər.

Korrupsiyaya münasibət də pisdir. Sorğuda iştirak edənlərdən yalnız üç faizi deyib ki, rüşvət, ya da hədiyyə vermək pis iş deyil.




### DÖVLƏT XƏRCLƏRİNİN PRİORİTETLƏRİ

«Büdcə xərclərinin əsas istiqamətləri hansılar olmalıdır» sualına respondentlərin yarıdan çoxu təhsil, səhiyyə və kasıbların müdafiəsini göstərib. Keçid dövrü ölkələri arasında Azərbaycan kasıblarla varlılar arasında kəskin fərqin azaldılması və bərabərliyin müdafiə edilməsi sahəsində sonuncu yerdədir.

Azərbaycan rəsmilərinin bu hesabata münasibətləri hələlik bəlli deyil. Amma rəsmilər adətən xarici təşkilatların tənqidlərini Bakıya yönələn təzyiq cəhdi kimi izah edirlər.

# Əli Həsənov: «Azərbaycanda iqtidarla müxalifət arasında dialoq var»


Əli Həsənov

**Prezident Administrasiyası ictimai-siyasi şöbəsinin müdiri Əli Həsənovun APA informasiya agentliyinə müsahibəsi.**

*- Bir neçə gün öncə Bakıda səfərdə olan ABŞ dövlət katibi müavininin demokratiya, insan haqları və əmək məsələləri üzrə köməkçisi Tomas Melia bəyan edib ki, Azərbaycanda insan hüquqlarının vəziyyəti daha yaxşı ola bilər və olmalıdır. Onun dediklərini nə qədər obyektiv sayırsınız?*

- Tomas Melia ilə mən Prezident Administrasiyasında görüş keçirdim. Diskussiya qarşılıqlı anlaşma və əməkdaşlıq şəraitində keçdi. Əlbəttə, onun fikirlərində bizi qane etməyən müəyyən məsələlər var idi, bunlarla bağlı müvafiq cavablar verildi. Həmçinin onda olmayan, yaxud olan, lakin birtərəfli sayılan informasiyalarla bağlı da Azərbaycan hakimiyyətinin mövqelərini, mövcud vəziyyətlə bağlı informasiyaları çatdırdım. Düşünürəm ki, ABŞ-ın bugünkü Administrasiyası, ABŞ Dövlət Departamenti və digər strukturlarla əməkdaşlığı ABŞ-Azərbaycan münasibətlərinin ruhuna uyğun şəkildə bundan sonra da davam etdirəcəyik.

*- İctimai Palatanın fəaliyyətini izləyirsinizmi? Bu qurumun indiki durumu barədə nə deyə bilərsiniz?*

- Mən İctimai Palata adlandırılan bu qurumun fəaliyyəti ilə bağlı bir neçə dəfə fikir söyləmişəm. Bunu anlayanlar da olub, qərəzli yozanlar da olub. Oradakı bəzi insanları mən yaxşı tanıyıram və həmin şəxslərin bu və ya digər məsələ ilə bağlı ağıllı qərar çıxarmaq imkanlarına da şübhə etmirəm. Amma ora yığışan insanların hamısı haqqında bu sözü demək olmaz. Ora hər cür insan yığışıb. İctimai Palata adlandırılan qurumun formalaşmasının əsas prinsipi isə sanki radikal anti-iqtidar mövqeyidir. Hər radikal anti-iqtidar mövqeyində olan insan bu və ya digər aksiya ilə, tədbirlə bağlı - özü də siyasi, taleyüklü məsələlərlə bağlı ağıllı, optimal qərar verə bilməz.

*Ona görə də hətta həmin qurumu müzakirə etməyi belə mən artıq hesab edirəm. Onların çıxara biləcəyi ən obyektiv, ağıllı qərar o ola bilər ki, qurumu buraxsınlar, siyasi partiyalar çərçivəsində fəaliyyət göstərərək ictimai institut kimi siyasi partiyaların fəaliyyətini təkmilləşdirsinlər.*

*- Zaman-zaman gündəmə gətirilən hakimiyyət-müxalifət dialoqu ilə bağlı yenilik varmı?*

- Dünyanın bütün ölkələrində, xüsusən də parlamenti çoxpartiyalı sistem əsasında formalaşmış ölkələrdə belə dialoqlar mütəmadi aparılır. Bu dialoqlar qanun çərçivəsində, sivil formada parlament səviyyəsində baş tutur. Azərbaycanda da bu dialoq var. Ölkə parlamentində təmsil olunan onlarla partiya üzvünün gündəlik bir arada Azərbaycanın ictimai, siyasi, mədəni həyatı ilə bağlı qanunların, Azərbaycanın daxili və xarici siyasətinin müzakirə edilməsi çərçivəsində bu dialoqlar davam edir. Bəzən bu dialoqlar ayrı-ayrı tədbirlərdə, forumlarda, konfrans və seminarlarda həyata keçirilir.

Dialoq necə olur? Dialoq elə belə olur da... Bu gün Azərbaycan Əfqanıstan deyil ki, əlinə silah alıb hakimiyyətə qarşı mübarizə aparan Talibanla hakimiyyətdə olan insanlar bir araya gəlsin, silahlarını yerə qoyub dialoq aparsınlar. Azərbaycan sivil demokratik dövlətdir...

# Ruslan Bəşirli həbsxanada ona təzyiq olunduğunu deyir

**Həbsdəki «Yeni Fikir» Gənclər Təşkilatının sədri Ruslan Bəşirliyə həbsxana rəhbərliyi tərəfindən təzyiq edildiyi deyilir. Atası Cəlil Bəşirli AzadlıqRadiosuna deyib ki, oğlu cəzasının 3/4 hissəsini çəkdiyindən məhkəməyə müraciət etməyə hazırlaşır. Lakin bir müddətdir həbsxanada təzyiqlə üzləşib: «Rəis son bir-iki ayda ona qarşı pis münasibətdədir və istər-istəməz ona qarşı təxribatlar törədir. Hətta biz özümüz onun yanına getməyə qorxuruq ki, yaxınlarına da qarşı təxribat törənər. Məsələn, apardığımız ərzağın içinə, üstümüzə bir şey tullayarlar. Bununla əlaqədar ona tez-tez rəis, onun öyrətdiyi adamlar tərəfindən psixoloji təzyiqlər var. Rəis deyir ki, məhkəməyə verməyin, versəniz, müsbət xasiyyətnamə verməyəcəm».**

C. Bəşirli bildirib ki, təzyiqlərə baxmayaraq, onlar yerli məhkəməyə müraciət etməyə iddialıdırlar. Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin mətbuat xidmətinin rəhbəri Mehman Sadıqov isə bu ittihamı «tamamilə məntiqsiz» adlandırıb: « Bu, məntiqsizdir axı, neçə ildir o, cəza çəkir, indi təzədən ona təzyiqlər başlayıb? Cəza müddətinin bir hissəsini çəkdikdən sonra məhkəməyə müraciət etmək onun hüququdur. O, ərizə ilə ərazi məhkəməsinə müraciət edə bilər. Məhkəmənin artıq hüququdur ki, onu vaxtından əvvəl şərti azad etsin, yaxud məntəqə tipli cəzaçəkmə müəssisəsinə keçirsin».


Ruslan Bəşirli

«Yeni Fikir» Gənclər Təşkilatının sədri Ruslan Bəşirli hakimiyyəti zorla ələ keçirmə ittihamı ilə 2005-ci ildən həbsdə yatır. 7 il azadlıqdan məhrum edilib. Hazırda 1 saylı cəzaçəkmə yerində saxlanılır.

***Sevinc Hüseynzadə***

# Salyanda zorən abadlaşdırma



**«Başçı özü, yanında da 20-30 nəfər gəlib mənə dedilər ki, 1400 manat pul verməlisən. Mən xəstə adamam, 2-ci qrup əliləm. Ərim nazir deyil ki, bir günə o qədər pul tapım. Başçı mənə deyir ki, hamı verib, sən də verməlisən. Deyir ki, get qohumlarından borc al. Gündə bir başçı gələcək, mən də borca düşəcəyəm?!» Bu şikayətçi Sevinc Sərdarova Salyanda çalışan kiçik sahibkardır, rayonun Yusif Qasımov küçəsində mağazası var, ticarətlə məşğuldur. Deyir ki, artıq bir neçə gündür rayon rəhbərliyi üzündən dincliyi pozulub, hər gün gəlib ondan 1400 manat pul tələb edirlər.**

**«2 MİLYON MANAT PUL HARA GETDİ?»**

«Prezident Salyana gəldi, çıxış etdi, 2 milyon pul ayırdı. Bu 2 milyon manat hara getdi ki, indi camaatdan pul yığırlar». Korrupsiyaya Qarşı Mübarizə Fondunun icraçı direktoru Vasif Mövsümov deyir: «Sahibkardan qeyri-qanuni alınan pul rüşvət deməkdir. Belə hallar Salyanda özünün pik nöqtəsinə çatıb, yəni sahibkarlardan şikayətlər artmaqdadır. Dövlət abadlaşdırmaya pul ayırandan sonra, nəyə görə sahibkar öz cibindən rayonun abadlaşdırılmasına pul verməlidir?»



Vasif Mövsümov

**SAHİBKARLARIN BORCUDUR Kİ...**

Vasif Mövsümov deyir ki, bu məsələ ilə bağlı Salyan Rayon İcra Hakimiyyətinin şəhər üzrə nümayəndəliyi ilə əlaqə saxlayıb. Dediyinə görə, ona cavab belə olub ki, göstəriş yuxarıdan- rayon rəhbərliyindən gəlib. Salyan rayon icra hakimiyyəti başçısının müavini Etibar Hüseynov bu iddialarla bağlı suallarımıza cavab verməkdən imtina etdi. İcra hakimiyyətinin şəhər üzrə nümayəndəliyinin sədri Kamil Əzizovsa təsdiqlədi ki, sahibkarlardan mağazalarının yeni daş örtüklərlə üzlənməsi istənilir. Onun dediyinə görə, rayonda abadlıq işləri aparıldığından mərkəzdə yerləşən mağaza sahibləri öz vəsaitləri hesabına obyektinin fasadını rayon memarlığına uyğun təmir etməyə borcludurlar: «Rayon rəhbərliyi tərəfindən onlara göstəriş verilib ki, dükanlarınızın ön tərəfini təmir etdirin. Əgər özünüz təmir etdirə bilmirsizsə, usta tapa bilmirsizsə, ustalar gəlsin eləsin onun haqqını verin. Həmin ustalar özləri gedirlər karyerdən daş, sement, qum alırlar, onların pulunu ödəməkdən boyun qaçırırlar».

**«BİZİ MƏMUR ÖZBAŞINALIĞINDAN XİLAS EDİN!»**

Bu tələbi qanunsuz hesab edən sahibkarlar isə Korrupsiyaya Qarşı Mübarizə Fondunun dəstəyi ilə prezidentə üz tutublar. İyunun 30-da dövlət başçısına müraciət məktubu ünvanlayıblar ki, onları məmur özbaşınalığından xilas etsin.

***Ülkər Akifqızı***

# Avtomobillərə texniki baxış prosedurları sadələşdiriləcək

**Azərbaycanda nəqliyyat vasitələrinə texniki baxışın keçirilməsi prosedurlarının sadələşdirilməsi nəzərdə tutulur. Bunu «Azərbaycan» qəzetinə müsahibəsində Daxili İşlər naziri Ramil Usubov deyib. Bu məqsədlə növbələrin elektron idarəetmə sisteminin tətbiqi planlaşdırılır. Dövlət Yol Polisi tərəfindən nəqliyyat vasitələrinin qeydiyyata alınması, sürücülük vəsiqələrinin verilməsi, sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbulu prosedurası da sadələşdiriləcək.**

«Ölkə ərazisinə idxal edilən nəqliyyat vasitələrinin uçotu və gömrük rəsmiləşdirilməsi «bir pəncərə» prinsipi əsasında həyata keçiriləcək. Yaxın vaxtlarda bu proseduranın tətbiqinə başlanılacaq», - deyə R. Usubov bildirib.


Sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbulu proseduru da sadələşdiriləcək

# İlham Əliyevin Yaxın Şərq siyasəti niyə dəyişdi?


Mahmud Abbas və İlham Əliyev

**Yerli telekanallar və hakimiyyətə yaxın mətbuat ikicə gün ərzində İlham Əliyevi dünyanın ən cəsarətli siyasi bəyanatının müəllifi etdi. Söhbət onun Fələstin prezidenti Mahmud Abbasla keçirdiyi birgə mətbuat konfransında dediyi sözlərdən gedir. İ.Əliyev dedi ki, Azərbaycan paytaxtı Şərqi Qüdsdə olan suveren Fələstin dövlətinin elan olunmasının və yaradılmasının tərəfdarıdır. Artıq üç gündür ki, görüş başa çatıb, M.Abbas öz vətəninə qayıdıb, amma İ.Əliyevin bu bəyanatı hələ də bir çoxlarını düşündürməkdədir.**

Bəli, bəyanat Azərbaycan rəhbəri üçün bir o qədər də xarakterik deyildi. Çünki bu ölkənin İsraildə səfirliyi hələ açılmasa və bu, müəyyən səbəblərdən yubansa da, müqayisə edildikdə İsrail Azərbaycanın xarici siyasətində daha üstün çəkiyə malikdir, nəinki Fələstin. Bəs onda İ.Əliyevi bu bəyanatı verməyə nə vadar etdi?

***Hüseynbala Səlimovun analitik yazısı AzadliqRadiosu.az-da***

# Пресса России - о Карабахском конфликте

**«Русский репортер» - в номере от 30 июня пишет, что «неформальным вожаком «ястребов» (сторонников войны – прим. ред.) в Азербайджане считается министр обороны Сафар Абиев».**



Сафар Абиев (слева) и Ильхам Алиев на военном параде в Баку, 26 июня 2011

Еженедельник также отмечает, что «сегодня, по оценкам ряда западных экспертов, к войне морально готовы больше половины азербайджанцев». Автор Дмитрий Карцев пишет, что по всем количественным показателям армия Азербайджана сильно превосходит армянскую: «Хотя и перед началом первой карабахской войны численный перевес был полностью на стороне Баку, а закончилось все его поражением. Тем не менее там, похоже, уверены, что дважды история не повторяется, и всерьез готовятся к войне. Это объясняется и внутриполитической ситуацией».

«Война станет тем более реальной, если в своей миротворческой роли разочаруется Москва. А это может случиться, учитывая, что с осени 2009 года Дмитрий Медведев организовал уже девять встреч Сержа Саркисяна и Ильхама Алиева, но итоги переговоров в Казани показали, что результата это не приносит», заключатся в статье «Русского Репортера».

***

**«В Степанакерте (Ханкенди – прим. РадиоАзадлыг) желают мира, но готовятся к обороне», пишет корреспондент газеты "Известия" Юрий Снегирёв.** Он беседовал с таксистом Оганесом по дороге из Еревана в Ханкенди. Таксист задает вопрос корреспонденту и сам же на него отвечает: «Ты знаешь? Кто такие карабахцы? Это львы! Любого агрессора порвут!»

В статье отмечается, что «после провала переговоров по мирному урегулированию конфликта в Казани тема войны с Азербайджаном - номер 1 на местном базаре, в многочисленных кафешках, на автостанции... Выросло новое поколение, которое дорогу в ближайшее бомбоубежище знает лучше, чем в ночной клуб».

Автор пишет, что «Оганес показывает на придорожный плакат с надписью: «Этот участок дороги построен на средства господина Карапетяна из Сан-Франциско» и что заявление президента Азербайджана Ильхама Алиева о военном бюджете страны в $3,3 млрд, который превышает весь бюджет Армении, «просто взбесило Оганеса»: «Да если что, бюджет всего мирового армянства будет воевать против Азербайджана! Все миллиардеры Америки и Европы наши люди. А это такая силища!»

***

«Совершенно ясно, что военный парад в Баку в день Вооруженных сил республики, был направлен на запугивание соседа – Армении», - пишет еще один еженедельник - «Аргументы Недели».

«Парад проходил на великолепно подходящей для подобного рода зрелищ огромной площади. Прохождение пеших «коробок» оставило странное впечатление. Марширующие солдаты прошли «прусским» шагом под восточную «танцевальную» музыку. Их парадная форма была похожа на российскую, но иногда – на турецкую. Одетые в полевую форму бойцы шли с намазанными камуфляжными красками лицами. Были там и облаченные в «костюмы лешего» снайперы. Отсутствовали марширующие с баллонами и ластами боевые пловцы – получился бы полный аналог иранских парадов», - отмечено в статье.

«Среди показанного стоит отметить... турецкие броневики «Кобра», стоящие на вооружении в Грузии. Они «прославились» в ходе памятных событий августа 2008 года – одну «Кобру» насквозь пробила пуля, выпущенная из крупнокалиберной снайперской винтовки», - продолжает газета.

«Повешенное на стену ружье все же выстрелит, – исключать, к сожалению, нельзя», - заключают «Аргументы Недели».




# Растут, растут доходы

**Государственный комитет по статистике Азербайджанской Республики обнародовал отчет. В нем говорится, что совокупные доходы населения Азербайджана с 2001 года и по настоящее время возросли с 4,3 млрд. манатов до25,6 млрд. Это позволяет некоторым утверждать, за последние 10 лет доходы населения Азербайджана возросли в 6 раз. Как хорошо! Вроде бы душа должна радоваться, но нет.**

И не только потому, что мои доходы не выросли. Не выросли они и у многих других жителей Азербайджана, кого я знаю, кто не живет, присосавшись к нефтяной трубе и не обслуживает присосавшихся – не охраняет от горячо любимого и любящего народа, не моет их машины, посуду и унитазы, не выгуливает собак и кошек, не выступает по телевидению и в Facebook, оправдывая их и их приспешников.

Еще в том отчете говорится, что уровень бедности понизился чуть ли не в 4 раза и так далее. Ах, как хорошо! Гордиться бы надо таким администрированием...

Как же получается, что доходы населения выросли в разы, а я этого совершенно не ощущаю? А очень просто. Если, допустим, у гражданина Ахмеда Ахмедова есть 2 миллиона манатов, а у меня – фига с маслом, то в среднем на нас двоих получается по миллиону. Или, допустим, у гражданина Мамеда Мамедова 10 миллиардов, а у десяти тысяч моих сограждан в кармане вошь на аркане, как у меня, в среднем опять получается по миллиончику на нос.

Тоже неплохо. Солидно и очень просто. А теперь прикиньте, что таких миллиардеров у нас полтора-два десятка человек, не считая одного супермультимиллиардера. Каково?

Так держать, Госкомстат!

***Чингиз Султансой***

# «Freedom House» avtoritar rejimləri potensial təhlükə mənbəyi sayır

**ABŞ-da yerləşən «Freedom House» təşkilatı sonuncu «Keçid dövründə olan ölkələr» adlı hesabatını açıqlayıb. Hesabatda deyilir ki, Baltik ölkələri istisna olmaqla, keçmiş sovet respublikalarında əhalinin 80 faizinin avtoritar rejimdə yaşaması gələcək üçün potensial təhlükədir. İllik hesabat Mərkəzi Avropadan tutmuş Orta Asiyaya qədər, inkişaf meyilləri duyulan Moldova və Gürcüstanda aparılan monitorinqlərin nəticəsində hazırlanıb. «Freedom House» təşkilatının icraçı direktoru Christopher Walker deyir ki, onlar araşdırma apardıqları «Keçid dövründə olan ölkələr»də bir sıra problemlər müşahidə ediblər. Onun sözlərinə görə, Baltik ölkələrindən başqa digər keçmiş sovet respublikalarında rəhbərlərin öz postlarını güzəştə getməsi, vacib demokratik islahatlara meyil göstərməsi hiss olunmur.**



Christopher Walker

## GƏLƏCƏKDƏ SİYASİ DURĞUNLUQLA ÜZ-ÜZƏ

AzadlıqRadiosunun «Sizin hesabatınız bəzi keçmiş sovet ölkələrinin rəhbərlərinin nisbətən gənc olmasını üzə çıxarır. Sizcə, gələcək siyasi dəyişikliyə nə təsir edə bilər?» sualına Christopher Walker belə cavab verir ki, doqquz keçmiş sovet ölkəsindən yalnız ikisində Özbəkistan və Qazaxıstanda prezidentlərin 70-dən çox yaşı var, digərlərində isə rəhbərlərin nisbətən gənc olması siyasi dəyişikliklərlə bağlı suallar yaradır: «Əgər digər avtoritar rejimlərin hökm sürdüyü ölkələrə baxsan görəcəksən ki, həqiqətən də burda rəhbərlər nisbətən gəncdirlər. Azərbaycan prezidenti İlham Əliyevin 49, Tacikistan prezidentinin 58, Vladimir Putinin 58, Dmitri Medvedevin isə 40 yaşı var. Beləliklə, öz postunda uzun müddət oturan liderlərə sahibsiz və keçmiş təcrübələrə əsasən, onların qeyri-müəyyən vaxta qədər bu vəzifədə olacağını güman etmək olar. Fikirləşirəm ki, bu ölkələrin heç birində əhəmiyyətli siyasi dəyişikliklər, ciddi liberalizm səyləri gözlənmir. Bu ölkələr həqiqətən perspektivdə siyasi durğunluqla üz-üzədir».

Bu hesabatda həm də göstərilir ki, siyasi plüralizmin çatışmazlığı ekstremizmə yol açır. Christopher Walker deyir ki, keçmiş sovet ölkələrində mütəmadi olaraq siyasi meydanda təmsil olunmaq istəkləri boğulur. O, bu günlərdə Rusiyada bir siyasi partiyanın qeydə alınmamasını misal çəkir və deyir ki, siyasi özgə fikirliliyə bu cür yanaşma digər ölkələrə də xasdır. Walkerin fikrincə, siyasi diskussiyalara yol açmadıqca, bu, ekstremizmin güclənməsinə səbəb olur.

## « İSLAHATLARIN NƏ ZAMAN BAŞ VERƏCƏYİNİ SÖYLƏMƏK ÇƏTİNDİR»

Ərəb inqilablarının olduğu ölkələrlə keçmiş sovet respublikaları arasında müqayisə aparan «Freedom House» təşkilatının direktoru deyir ki, bu ölkələrdə real siyasi plüralizmin olmaması, korrupsiya, qanunların aliliyinin gözlənilməməsi onları birləşdirən xüsusiyyətlərdir: «Yaxın Şərqdə və Şimali Afrikada son hadisələri müşahidə edirik. Deyək ki, Misir kimi ölkədə 30 illik qeyri-effektiv idarəetmə korrupsiyası və «klan» kapitalı olan ölkədə islahatlar aparmaq çətin olacaq. İndiki halda keçmiş sovet ölkələrində müstəqil institutların təkmilləşməsinə mütəmadi maneələrin olduğu, rəhbərlikdə mühüm rol oynaya biləsi siyasi fəalların ciddi-cəhdlə proseslərdən uzaqlaşdırılması fonunda əhəmiyyətli islahatların nə zaman baş verəcəyini söyləmək çox çətindir».

## HESABATA FƏRQLİ BAXIŞLAR

<u>Zahid Oruc:</u>

- «Freedom House» təşkilatının istər illik hesabatları, istərsə də aralıq



Zahid Oruc

mərhələdə ayrı-ayrı kriteriyalar üzrə verdiyi hesabatlara münasibət dünya çapında birmənalı deyil. Söhbət təkcə Azərbaycandan getmir. Bu təşkilatın qurulması, maliyyələşməsi, bilavasitə onun üzərində həyata keçirilən siyasi maraqlar, xüsusilə ona Mərkəzi Kəşfiyyat İdarəsinin sabiq rəhbərlərinin rəhbərlik etməsi bu qənaəti formalaşdırıb. Bu hesabatlarda biz həmişə birtərəflilik, qərəzlilik, açıq şəkildə siyasi təmayül tutma, sanki bir tərəfin məlumatına istinad etmə, ümumi prosesi kontekstdən çıxarma hallarının şahidi olmuşuq. Həmçinin, açıq, kobud yanlışlıqlar da özünü göstərib. Heç olmasa, Medvedevin yaşını düz göstərərdilər.

Amma«Freedom House»un bu ölkələrin siyasi sistemlərini, idarəçilik vəziyyətini təhlükə kimi qiymətləndirməsini, hətta Azərbaycanı Orta Asiya ölkələri ilə eyni sırada qoymasını çox yanlış sayıram....

<u>Erkin Qədirli:</u>

- Şəxsən mənim üçün bu hesabatlar xüsusi önəm kəsb etmir. Çünki biz




Erkin Qədirli

özümüz bu ölkədə yaşaya-yaşaya bu problemləri görürük... Ölkədə ciddi problemlər var. Ölkə siyasi baxımdan tənəzzülə uğrayır. Siyasi tənəzzül başqa sahələri də geridə qoyur...

# Samuxda dəhşətli faciə

## İraqdan sağ dönən əsgərimiz xəstəxanada dərman olmadığı üçün ölüb


Ata deyir ki, xəstəxanada oğluna yardım göstərilsəydi, ölməzdi

**İyunun əvvəlində Samux rayon Hacıalılar kəndinin 23 yaşlı sakini Sənan Məmmədovu əkin sahəsində ilan sancıb. 11 gün xəstəxanalarda müalicə edilən Sənan Məmmədovu xilas etmək mümkün olmayıb. Atası Qalib Məmmədov deyir ki, ilk üz tutduğu Samux Rayon Xəstəxanasında oğluna yardım göstərilsəydi, balasını itirməzdi:**

**«NƏ BİNT VAR, NƏ İYNƏ»**

«Sənan arxı keçəndə çığırdı ki, məni ilan vurdu. Uşağı tez maşına qoydum, 3-4 dəqiqəyə xəstəxanaya çatdırdım. Həkim Rafael Əsədov qarşımıza çıxdı. Dedim, həkim, uşağı ilan vurub, yardım elə. Dedi ki, heç bir şeyimiz yoxdur. Dərman-dəva yoxdur. Uşağın ayağını bərk sıxmışdım. Onu da açdırdı. Heç bir yardım etmədi. Heç baxmadı da. Dedi nə bint var, nə iynə var, nə də novokain, heç bir yardım edə bilmərik. Elə balkondan dedi ki, sür, dayanma, apar Gəncə xəstəxanasına».

Sənan Məmmədova zərdab axtarışı sonradan Gəncə Şəhər Təcili Tibbi Yardım Xəstəxanasında davam edib. Qalib Məmmədov deyir ki, 140 manat pul verib ilk vaksini xəstəxananın yaxınlığındakı aptekdən alıb. Sonradan vurulan daha 2 zərdabı isə, deməsinə görə, elə həmin qiymətə xəstəxananın tibb bacıları ona satıb. Ancaq get-gedə vəziyyəti pisləşdiyindən Bakıdakı Toksikologiya Mərkəzinə çatdırılan Sənan Məmmədova həkimlər 10 faiz yaşamaq diaqnozu qoyublar. Valideynlərinə deyiblər ki, dərhal zərdab vurulsaydı, mütləq o, sağalardı. İndi Qalib Məmmədov buna görə Samux Rayon Xəstəxanasının cərrahiyə şöbəsinin baş həkimi Rafael Əsədovu günahlandırır.

**«İNDİ VAKSİNİMİZ VAR, HƏMİN VAXT OLMAYIB»**

Rafael Əsədov isə mərhum Sənan Məmmədovla bağlı onlara müraciət edilmədiyini deyir. Ancaq bu məsələdən xəbərdar olduğunu da gizlətmir. Üstəlik, etiraf edir ki, həmin gün zərdabları olmayıb:

- Bizim iştirakımız olmayıb, bizə müraciət olunmayıb. Ancaq çatdırılan məlumatlara görə, ilan onu vurub. Sonra Gəncə Şəhər Xəstəxanasına aparılıb. 3 dəfə vaksin edilib. Bir insan kimi xəstəxanadan maraqlanmışıq, vəziyyəti necədir. Onların dediyinə görə, lazımi tədbirlər göstərilib. Vəziyyəti ilə əlaqədar Toksikoloji Mərkəzə aparılıb. Bu, bizə deyilib.

*- Atası deyib?*

- Bəli, mən də dedim ki, təcili aparın Gəncədəki reanimasiya şöbəsinə.


Baş həkim Rafael Əsədov

*- Təcili yardım etmə imkanınız yoxdur ki?*

- Vaxt itərdi deyə, etmədik.

*- Yəni ilan vuran xəstəni sizin xəstəxanaya gətirmək olmaz?*

- Gətirmək olar, indi vaksinimiz var, həmin vaxt olmayıb».

**«GECİKƏNDƏ 3-4 DOZA ZƏRDAB VURULSA, BELƏ NƏTİCƏ OLMUR»**

Gəncə Təcili Yardım Xəstəxanasının baş həkimi Azad Quliyev də Sənan Məmmədovun ölümünü zərdabın rayonda ikən ona vurulmaması ilə əlaqələndirir. Azad Quliyev deyir ki, rayon xəstəxanalarında zərdabın olmaması onların da işini çətinləşdirir. Deməsinə görə, onlara müraciət edənlər də əsasən elə ətraf rayonlardandır: «Bu il yay mövsümünə kimi bizə ilan vurmadan 4 xəstə müraciət edib. Onlardan biri tələf olub. Ötən il isə həmin məsələdən 17 xəstə olub. Sağalma ehtimalına görə, ilk dəqiqələrdə mütləq zərdab vurulmalıdır. Gecikəndə 3-4 doza zərdab vurulsa, belə nəticə olmur. Məsələn, ölən xəstəyə 4 doza zərdab vuruldu. Gec olduğu üçün. Kənd yerlərində birbaşa şəhərə gəlir, vaxt itirilməsini düşünmürlər. Hazırda 3 doza zərdabımız var. Ehtiyatda varımızdır. Mütləqdir ki, xəstəxanalarda zərdab olsun».

**«ZƏRDAB İLK TİBBİ YARDIM LƏVAZİMATLARININ TƏRKİBİNDƏ OLMALIDIR»**

Mütəxəssislər deyir ki, ilan zəhəri qana daxil olan kimi toksinləri parçalayır. Bunun üçün elə ilk olaraq zərdabın vurulması zəruridir. Həkim Adil Qeybulla da deyir ki, ilkin tibbi yardım ləvazimatları siyahısına zərdab mütləq salınmalıdır:

- İlk yardımın əsas istiqaməti vaxtında zərdabın vurulmasıdır. Sonra digər müalicələrdir. Zərdab olmasa, digər müalicələr effekt vermir. Zərdab toksikoloji mərkəzlərdə, rayonların toksikoloji şöbələrində mütləq olmalıdır. Zərdab ehtiyatı ilk tibbi yardım ləvazimatlarının tərkib hissələrindən biri olmalıdır.

**İRAQDA ÖLMƏDİ. EVDƏ İLANIN QURBANI OLDU**

Sənan Məmmədov hərbi xidmətini İraqda çəkib. O, sülhməramlı qüvvələrin tərkibində nümunəvi xidmət keçib yenicə qayıdıbmış. Gəncə Dövlət Universitetinin tarix fakültəsinin 2-ci kursunda oxuyurmuş.

***Gülnur Raqifqızı***

**AzadliqRadiosu.az saytında daimi rubrika:**




**Problemlərinizi, şikayətlərinizi AzadlıqRadiosunun "Qaynar Xətt"inə çatdırın:**

**Telefon: (+99412) 436-77-41**
**SMS: (+99450) 744-10-17**
**E-mail: efir@azadliqradiosu.az**
**azadliq@rferl.org**

# Hərbi çağırışda rüşvət yığışırmı?

**Bu həftə Azərbaycanın daha 2 hərbi komissarlığında yoxlama başlayıb. Gəncə şəhərinin Nizami və Kəpəz rayon hərbi komissarlıqlarında. Bundan əvvəl isə Bakının Binəqədi, Suraxanı rayonlarının və Sumqayıt şəhər hərbi komissarlıqlarında oxşar yoxlamalar keçirilmişdi. Hər üç hərbi komissar həbs edilərək işdən azad edilmişdilər. «Panorama» verilişində suallara «Silahlı Qüvvələrə Demokratik Vətəndaş Nəzarəti» Azərbaycan Mərkəzinin direktoru Ələkbər Məmmədov və Silahlı Qüvvələrə İctimai Nəzarət Birliyinin sədri Emin Həsənli cavab verir.**

Emin Həsənli:



Emin Həsənli

### «RÜŞVƏTXORLUQLA MÜBARİZƏNİ ALQIŞLAMAQ LAZIMDIR»

- Orduda rüşvət olduğunu rəhbərlik gizlətmir. İndi buna qarşı mübarizə aparılır, konkret hərbi komissarlar həbs edilir. Bunu alqışlamaq lazımdır ki, rüşvətxorluğa qarşı mübarizə aparılır və bu mübarizə effekt verəcək. Bu da vəziyyətin dəyişməsinə gətirib çıxarıb. Artıq çağırışda insan amili aradan qalxır. Bütün sistem kompyuterləşib. Necə ki, test üsulu savadlı, bilikli insanların qəbuluna şərait yaradır, bu da elə. İndi də hamı başa düşür ki, pulla, tapşırıqla istədiyin hərbi hissəyə düşmək artıq mümkün deyil.

Ələkbər Məmmədov:



Ələkbər Məmmədov

### «İNDİ BAKIDA UŞAQ SAXLATDIRMAQ 4 MİN MANATA QALXIB»

- Uzun müddət idi ki, bizim deməyimizə baxmayaraq, heç kim buna fikir vermirdi. Ta Əliağa Hüseynov Respublika Hərbi Komissarlığından çıxarılana qədər. O da bir çoxları kimi, ətrafına öz adamlarını yığmışdı. İndi vurulan komissarlardan bir çoxu onun kadrlarıdır. Bu da korrupsiyaya qarşı mübarizə kimi təqdim edilir. Bir də çıxarılanlar yuxarıları qane etməyən adamlardır. Bəs yuxarıdakılar? Yuxarılar prosesdən kənarda tutulacaqsa, mən bunu korrupsiya ilə mübarizə adlandırmayacağam. Hesab edəcəm ki, məqsəd görüntü yaratmaqdır. Mən sizə deyim. İndi Bakıda uşaq saxlatdırmaq 4 min manata qalxıb. Daxili qoşunlara düşmək isə 12 min manatdır. Belə çıxır ki, kimin bu qədər pulu olacaq, o, oğlunu daxili qoşunlara saldıra biləcək...

***Babək Bəkir***

# Şamaxıda qoyulan abidə narazılıq yaratdı

*«Azadlıq» qəzetinin 1 iyul tarixli sayı Şamaxı rayonundakı köşklərdən yığışdırılıb. AzadlıqRadiosuna qəzetin məsul katibi Elşən Şirinov deyib ki, onlar qəzeti kimin və niyə yığdığı barədə məlumata malik deyillər. Amma ehtimal edirlər ki, bu, qəzetin 1 iyul sayında Şamaxı rayonundan bəhs edən bir yazı ilə bağlıdır: «İcra başçısı şirvanlıları təhqir etdi» başlıqlı yazıda Şamaxı şəhərinin girəcəyində qoyulan abidəyə rayon sakinlərinin etiraz etməsindən söz açılır. Həmin abidədə eşşəyə qoşulmuş arabada əyləşən bir kəndli əks olunub».*

Şamaxı Rayon İcra Hakimiyyətinin rəsmisi Ağamustafa Vahidov «Azadlıq» qəzetinin köşklərdən yığışdırılmasından xəbərsiz olduqlarını deyir. O, abidənin qoyulmasında hər hansı problem görməyib: «Həmyə kəndinə gedən yolda qoyulan abidə kəndlini, qədimliyi tərənnüm edir. Kim nə fikirləşir özü bilər».

Ağamustafa Vahidov abidənin mühafizə olunması barədə məlumatları da təkzib edir.

***Maarif Çingizoğlu***




# Hansı ölkənin nə qədər polisi var?

**Nə etmək lazımdır ki, polis dəyişsin? Asayiş keşikçilərinin sayını artırmalı, yoxsa azaltmalı? Onlara çox pul vermək? Bu suallarla başqa ölkələrin təcrübəsinə müraciət etməyi qərara aldıq. MDB və Şərqi Avropa məkanında ən çox polis Belarusdadır – orada hər 100 min əhaliyə 1442 milisioner düşür. İkinci Rusiya – 976, üçüncü isə Qazaxıstandır –713.**

Ən az polis isə Estoniya, Moldova və Azərbaycandadır. Düzdür, Azərbaycan hakimiyyəti ölkədəki polisin sayını açıqlamır. Tənqidçilər isə tez-tez hökuməti ölkədə «polis hakimiyyəti» yaratmaqda ittiham edib, onların sayının çox olmasından şikayətlənirlər. Amma beynəlxalq hesabatlara inansaq, hər 100 min adamın keşiyində Azərbaycanda 456 polis əməkdaşı durur. Estoniya və Moldovada bundan da azdır - müvafiq olaraq 328 və 385. «UZAQ» XARİC ÖLKƏLƏRİNƏ GƏLDİKDƏ, hər 1000 nəfərə İtaliyada 5.5, Türkiyədə 4.8, Fransada 3.7, Almaniyada 3, ABŞ-da isə 2.3 polis düşür.

### RUSİYADA MİLİS POLİS OLDU, MAAŞLAR ARTDI

Rusiyada qərara alıblar ki, polisdə korrupsiya ilə mübarizə aparmaq üçün əməkhaqqını üç dəfə artırsınlar. Rusiyada polis serjantı 2012-ci ildən hər ay 35 000 rubl (1150 dollar) alacaq. Statistikaya əsasən, post-Sovet məkanında hazırda ən çox Estoniya (850 dollar), ən az alan isə Ukrayna polisidir – 190-250 dollar. Azərbaycanda sıravi polis əməkdaşının ortalama məvacibi isə 510 dollardır (400 manat).Türkiyədə polis məmuru 1000-1100, Ermənistanda 400 dollar əməkhaqqı alır.

# "Azərfon"a kim nəzarət edir?



AZƏRBAYCAN RESPUBLİKASININ
RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI
NAZİRLİYİ

07.06.2011 № TB-AS/405

"Azadlıq radiosu"na
xanım Xədicə İsmayılovaya

Hörmətli xanım İsmayılova,

"Azerfon" MMC ilə əlaqədar informasiya sorğusuna Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində (RİTN) baxılmışdır.

Sorğunuzla əlaqədar bildiririk ki, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 15.09.2005-ci il tarixli 1105-T13-3906 nömrəli Şəhadətnamə ilə dövlət qeydiyyatına alınmış "Azerfon" MMC-nin təsisçilərindən biri Almaniya Federativ Respublikasının qanunları əsasında yaradılmış və fəaliyyət göstərən "Siemens AG" şirkəti olmuşdur.

Bununla yanaşı, "Azerfon" MMC-yə sellülar (GSM-mobil) rabitə xidməti üzrə 30.12.2005-ci il tarixində RİTN tərəfindən mövcud qanunvericiliyə uyğun olaraq xüsusi razılıq (lisenziya) verilmiş və 24.12.2010-cu il tarixində həmin lisenziyanın müddəti daha 5 (beş) il müddətinə uzadılmışdır.

"Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 02.09.2002-ci il tarixli 782 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında Qaydalar"a və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 noyabr 2002-ci il tarixli 174 nömrəli Qərarı ilə təsdiq edilmiş "Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq xüsusi razılıq (lisenziya) verilməsi üçün tələb olunan əlavə Şərtlər"ə uyğun olaraq xüsusi razılıq (lisenziya) almaq üçün müraciət edən ərizəçi tərəfindən lisenziya

**Azərbaycan prezidentinin ailəsi ölkənin 3 mobil rabitə operatorundan birinin sahibi imiş. Bunu AzadlıqRadiosunun əldə etdiyi sənədlər üzə çıxarır. Hökumət 5 ildir ki, bazarda olan və ekspertlərin fikrincə, kifayət qədər imtiyazlardan istifadə edən "Azerfon"un sahiblərini gizlətməyə üstünlük verib, ictimaiyyətə açıqlanan nadir məlumatlar isə həqiqətə uyğun olmayıb.**

«Nar» ticarət markasının sahibi «Azərfon» mobil rabitə şirkətinin kimə aid olması barədə suallar hələ 2006-cı ildə, ölkədə 3-cü mobil rabitə operatoru olacağı barədə ilk məlumat veriləndən bəri ortaya çıxıb. Və elə ilk günlərdən Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi (RİTN) «Azərfon»un təsisçiləri kimi Almaniyanın «Siemens AG»-nin və Britaniyanın 2 şirkətinin adını çəkir.

### «SIEMENS AG»: ««AZƏRFON» BİZİM DEYİL»

«Siemens AG» şirkətində isə bunu ilk dəfə bizdən eşitdiklərini deyirlər. «Siemens»in sözçüsü Monika Bruecklmeier Langendorf sorğumuza cavabında deyib ki, bu şirkətin nə «Azərfon MMC»də, nə də Azərbaycandakı digər mobil rabitə şirkətlərində payı yoxdur.

### VERGİLƏR NAZİRLİYİ RİTN-in MƏLUMATINI TƏKZİB EDİR

Rabitə Nazirliyi və "Siemens"in daban-dabana zidd açıqlamalarına Azərbaycanın başqa bir rəsmi qurumu son qoyur. Vergilər Nazirliyinin «Azərfon MMC»nin təsis sənədlərindən verdiyi çıxarışda deyilir ki, Ədliyyə Nazirliyinin 1105-T13-3906 nömrəsi ilə qeydə aldığı «Azərfon MMC»nin pay sahibləri 3 Panama şirkəti, bir Nevis adalarında qeydə alınmış şirkət və «Aztelekom»dur.

Paylar isə payçılar arasında belə bölünüb:

«Aztelekom» - 10 %,

«Cellex Communications S. A» - Nevis adaları - 18 %,

«Hughson Management Inc» - Panama - 24 %,

«Gladvyn Management Inc» - Panama - 24%,

«Grinnel Management Inc» - Panama - 24 %

Panama dövlət reyestrindən «Azərfon»un ümumilikdə 72 faizinə sahib olan şirkətlərin təsis sənədlərini əldə etdik. Hər üç şirkətin Direktorlar Şurasında eyni adları görürük: Leyla Əliyeva, Arzu Əliyeva və Olivier Mestelan. Bacılar həm də şirkətlərin prezident və xəzinədar vəzifələrini bölüşdürürlər.

Arzu Əliyeva «Hughson Management Inc» və«Gladvyn Management Inc» şirkətlərinin, Leyla Əliyeva isə «Grinnel Management Inc» şirkətinin prezidentidir. Olivier Mestelan hər üç şirkətdə katib vəzifəsindədir.

«İşdən sonra» proqramında Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz, iqtisadçı-ekspertlər Zöhrab İsmayıl və Nazim Məmmədov AzadlıqRadiosunun««Azərfon»a İlham Əliyevin qızlarına məxsus Panama şirkətləri nəzarət edir» adlı araşdırma yazısını müzakirə ediblər.

Osman Gündüz:



Osman Gündüz

- «3G lisenziyasının verilməsinə qədər olan dövr bizim tam yadımızdadır. «Azercell» şirkəti 3G texnologiyasına keçidə tam hazır olmasına baxmayaraq, birdən-birə heç bir tender keçirilmədən, araşdırılma aparılmadan bu, başqa şirkətə verildi. Dünyada bunun oturuşmuş qayda-qanunu var. Ya tender keçirilir, ya auksion keçirilir, ya da müvafiq icra hakimiyyəti operatorların bazarı ilə bağlı ciddi araşdırma aparır. Təəssüf ki, biz bu üç halın heç birini bazarda müşahidə etmədik. Doğrudan da, bu, gözlənilməz bir şey idi...»

Zöhrab İsmayıl:



Zöhrab İsmayıl

- «...Hər bir şirkətin sahibi bəlli olmalıdır və bu məlumatlar açıq olmalıdır. Bu qalmaqalda prezident ailəsinin adının hallanması isə ölkədə baş alıb gedən korrupsiya mövzusuna toxunmağa vadar edir. Hökumət ölkədə korrupsiyaya qarşı mübarizə elan edəndə, gərək o mübarizə bu cür məsələlərdən başlasın. Ortaya çıxan ilk sual ondan ibarətdir ki, prezident ailəsinin əlində bu qədər investisiya haradandır ki, həm bank ala bilir, həm də şirkət təsis edə, başqa layihələr həyata keçirə bilir, Dubayda villalar ala bilir? Bu vəsaitlər haradandır?

Bunun mənbəyi haradandır?».

Nazim Məmmədov:

- «İstənilən vətəndaşın hər hansı bir şirkətin sahibi olmasında bir problem görmürəm. Ola bilər ki, cənab prezidentin qızları kimə isə müəyyən kommersiya fəaliyyəti üçün etibarnamə veriblər. Sadəcə, xaricdən dəvət olunmuş top menecerlər Azərbaycanda qanunlarda olan boşluqdan, məmurların öz işinə doğru-dürüst yanaşmamasından sui-istifadə edirlər. Eyni zamanda ölkə başçısının övladlarının, ailəsinin adına, imicinə xələl gətirirlər. Bu o məqsədi daşıyır ki, o menecer həmin vəsaitləri öz məqsədləri üçün Azərbaycandan çıxara bilsin. Güman etmirəm ki, ona etibarnamə ancaq və ancaq xarici ölkələrdə offşor şirkətləri yaratmaq üçün verilsin».

***Xədicə İsmayılova***

# Goranboyda şikayətçi icra hakimiyyətinə niyə silahla gedib?



**İyunun 2-də Goranboy rayon sakini, 45 yaşlı Rəhman Qasımov əlində ona məxsus qoşalülə ov tüfəngi ilə icra hakimiyyətinə şikayətə gəlib. Mühafizəçilər onu oradaca zərərsizləşdiriblər. 2010-cu ildən təqaüdə çıxan keçmiş polis işçisi Rəhman Qasımovun uzun illərdir şəkərli diabetdən əziyyət çəkdiyi bildirilir. Həyat yoldaşı Nəzakət Qasımova deyir ki, Rəhman Qasımov məcburiyyətdən bu addımı atıb. Onun sözlərinə görə, əri dəfələrlə müxtəlif səhiyyə ocaqlarına diabetə qarşı dərmanlarını vaxtlı-vaxtında almaq üçün müraciət edib. Nəzakət Qasımova deyir ki, 10 ildir insulindən asılı, ağır şəkər xəstəsi olan həyat yoldaşı get-gələ salındığından hətta dəfələrlə prokurorluğa şikayət ərizəsi yazıb. Həmin ərizələri göstərən Nəzakət Qasımova deyir ki, dərmanları qəbul etməyəndə əri dəhşətli ağrılar keçirib: "Ara verəndə də bütün bədəni səpirdi. O gün dırnaqlarına qədər kəsib ki, ağrılarına dözə bilmir".**

Qarabağ uğrunda döyüşərək onurğa sütunundan zədə almış, 4 dəfə əməliyyat olunmuş veteran və köhnə polis işçisinin icra hakimiyyətinə basqın edərək etiraz etməsi yoldaşı Nəzakət Qasımovanı utandırır. Deyir gərək belə etməzdi. Bununla yanaşı 2 gündür ki, polis şöbəsində saxlanılan Rəhmanın səhhətindən də nigarandır.

Rəhman Qasımov deyir ki, heç indi də polis şöbəsində şəkərini aşağı salmaq üçün xəstəxanadan insulin verilməyib: "2 gündür həkim gedib baxıb, şəkəri qalxır, çox yüksəkdir. Qohumlarından kənddə şəkər xəstəsi var, ondan insulin tapıb gətiriblər ki, aparın vursunlar".

Goranboy Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Rüstəm Budaqov isə deyir ki, Rəhman Qasımova hər ay qaydasında dərmanlar verilir. Lakin onu da əlavə edir ki, rayonda xəstə sayı verilən dərmanlardan çoxdur: "Səhiyyə Nazirliyinə də, Maliyyə Nazirliyinə də müraciət etmişik. Söz veriblər ki, ilin ikinci yarısı dərman təminatı yaxşılaşacaq".

Rayon Prokurorluğundan verilən məlumatda isə deyilir ki, 45 yaşlı Rəhman Qasımov xəstə olduğu üçün Goranboy Rayon Polis Şöbəsinin rəisi Məhəmməd Məmmədovdan maddi kömək istəyib. Lakin ona heç bir yardım edilmədiyindən diabetdən əziyyət çəkən Rəhman Qasımov evindən qoşalülə ov tüfəngini götürüb etiraz əlaməti olaraq Goranboy Rayon İcra Hakimiyyətinə gəlib. Polis şöbəsindən isə deyilir ki, barəsində açılan cinayət işi üzrə Rəhman Qasımov istintaq altında və həkim nəzarətindədir.

*Faktla bağlı cinayət işi başlanılıb.*

***Gülnur Raqifqızı***

# Masallıda tərəvəz sahələrdə çürüyür


Səyavuş Nurullayev

**Masallı rayonunun Həsənli kəndinə gedən yolun hər iki tərəfində tərəvəz sahələri uzanır. Həmin sahədə qızmar günəş altında işləyən adamlar gözə dəyir. Sahəyə dönürük. Özünü təqdim edən Həsənli kənd sakini, Qarabağ əlili Səyavuş Nurullayev deyir ki, ailəsi ilə birlikdə 70 sot torpaqda yemiş, badımcan, pomidor əkib:**

«Əkinə 1000 dollar xərc çəkmişəm. İlin əvvəlindən bu torpaqda eşələnirik. Məhsul yetişdirmişik, lakin alanı yoxdur. Bazarlarda da məhsullarımızı sata bilmirik. Möhtəkirlər imkan vermir. Badımcanın 25 kiloqramlıq kisəsi 1 manata, yemişin 1 kiloqramı isə 10 qəpiyə enib. Halbuki yemişin bir kiloqramının maya dəyəri 25-30 qəpiyədir. Artıq ziyana düşmüşəm. Gələn il məhsul əkməyəcəyəm».

**«RUSİYAYA TƏRƏVƏZ APARANLARI DA SƏRHƏDDƏ İNCİDİRLƏR»**

S.Nurullayevin həmkəndlisi Xudaşükür Ağayev də qiymətlərin çox aşağı olduğunu bildirdi. Onun deməsinə görə, bir gündə yemişin bir kiloqramı 14 qəpikdən 10 qəpiyə enib: «Ailə üzvlərimlə 1 hektarda tərəvəz və bostan məhsulu əkmişik. Bu il məhsul boldur. Lakin satılmır. İki gündə 300 kiloqram yemiş satmışam, onu da 12 manata. Ötən il bu vaxtı tərəvəzdən 10 min manat pul götürmüşdüm. Məhsulu bazara aparmaq sərf etmir. Maşına, bazarda yerə görə pul verməli olursan. Çox adam satılmayan badımcanı zibilxanalara tullayıb evə qayıdır. Sahədə yemiş çürüyür. Dərdimizə bir çarə qılan yoxdur. Rusiyaya tərəvəz aparanları da sərhəddə incidirlər. Onlar da bu işdən imtina ediblər».

**"KƏNDLİYƏ DƏYMİŞ ZİYAN ÖDƏNİLMƏLİDİR Kİ..."**

Kənd təsərrüfatı mütəxəssisi Yusif Əliyev isə Azərbaycanın kənd təsərrüfatında planlı şəkildə iş aparılmadığını söyləyir: «Ölkəmizin cənubunda əsasən tərəvəz məhsulları yetişdirilərdi. İndi eyni vaxtda rayonlarda bostan və tərəvəz məhsulları əkilir. Nəticədə daxili tələbatdan da çox məhsul yığılır və bazara çıxarılır. Qiymətlər həddindən artıq aşağı düşür. Bazarların monopoliyaya alınması da işin gedişinə mənfi təsir edir. Kəndliyə məhsulu bazara çıxartmaq sərf etmir. Yetişdirilən məhsul sahələrdə qalıb çürüyür. Kəndli müflis olur. Bunun qarşısını almaq üçün xarici bazar axtarılmalıdır, emal müəssisələri, soyuducu anbarlar tikilməlidir. Ya da kəndliyə dəymiş ziyan ödənilməlidir ki, növbəti ildə əkin keçirdə bilsin».

***Müstəcab Məmmədov***

# Əkrəm Əylisli: "Bizim də, ermənilərin də mövqeyində ədalətli məqamlar var"



*"Məncə, Çörçil deyib ki, "siyasət - güzəşt deməkdir". Qarabağ məsələsinin həllində də güzəşt olmalıdır. Ermənilər o fikirdədirlər ki, onlar Qarabağda çoxdurlar, yaşayıblar, yaşayırlar və bunlar bu torpaqlarda öz qanunları ilə yaşamaq istəyirlər. Azərbaycan isə beynəlxalq hüquqa əsaslanıb ərazi bütövlüyünü təmin etmək istəyir. Siyasi yox, bir az fəlsəfi tərəfdən baxsan, bu mövqelərin hər ikisində müəyyən qədər ədalətli məqamlar var. Heç kim haray-həşir salmasın ki, Əkrəm Əylisli deyir gedin torpaqları verin. Mən deyirəm ki, bu məsələnin həlli üçün hökmən güzəşt lazım olacaq." Xalq yazıçısı Əkrəm Əylisli bunu AzadlıqRadiosunun "Pen klub" verilişində deyib.*

"Bilmirəm, onlar nədə, biz nədə güzəştə getməliyik. Amma bizim siyasətdə bir şey var, onu demək istəyirəm. Bilirsiniz, siyasət, ərazi bütövlüyünün təmin olunmasına yönələ bilər. Amma heç bir siyasət xalqlari bir-birinə düşmən eləməyə yönələ bilməz. Bizdə imkan yaradirlar, hər yerindən duran erməni xalqı, onun tarixi, mədəniyyəti haqqında ağzina gələni danışır. Xalqlari bir-birinə düşmən eləmək bəşəriyyət qarşısında cinayətdir...."

**VƏZİFƏ ARTIQ FƏLAKƏTƏ ÇEVRİLİB AZƏRBAYCAN ÜÇÜN**

Ədəbiyyatın problemlərindən danışan Ə.Əylisli deyib ki, bu sahədə "vəzifəpərəstlik baş alıb gedir". Yazıçı deyib: "Məsələn, Fikrət Qocanın üstünə düşmüşdülər ki, "sən bu mitinqlərin əleyhinə məqalə yazmısan. Fikrət Qoca mitinqlərin əleyhinə yox, öz vəzifəsini qorumaq üçün belə bir yazı yazıb. Əgər bir adam bir yerdə 20 il oturubsa, artıq qocalıb əldən düşəndən sonra, bir az da oturmaq üçün belə bir şeyə gedirsə, vəzifə artıq fəlakətə çevrilib Azərbaycan üçün".

Ə.Əylisli Milli Kitab Mükafatının yazıçı Pərviz Cəbrayıla verilməsini müsbət dəyərləndirib: "Mənim üçün Pərviz kimi azad adamlar Azərbaycan Yazıçılar Birliyinin 1500 üzvündən daha maraqlıdır".

**"Pen klub" verilişindəki bu söhbətin davamına AzadliqRadiosu.az saytında qulaq asa bilərsiniz.**

# Seyran Səxavət: "Qarabağ mövzusunda ən yaxşı əsəri Müdafiə Nazirliyi yazmalıdır"



**Yazıçı Seyran Səxavət Kazan görüşündən sonra verdiyi müsahibədə deyir:**

- Bir dəfə telekanalların birində aparıcı məni az qala eninə-boyuna danlayırdı ki, yazıçılar, şairlər Qarabağdan niyə yazmır? Mən ona konkret cavab verdim. Dedim, mən bütün ərkim keçən yazıçı dostlarıma - onlar 2-3 nəfərdir - şair dostlarıma, ümumiyyətlə, Qarabağ haqqında nəsə yazmağı qadağan edirəm. Çünki artıq 20 il keçəndən sonra bu məsələ bədii ədəbiyyat mövzusu olmaqdan çıxıb.

Mənə elə gəlir ki, Qarabağ mövzusunda ən yaxşı, ən möhtəşəm əsəri Azərbaycanın Müdafiə Nazirliyi yazmalıdır və biz hamımız o əsəri sevməliyik, o əsərin nəticəsini qiymətləndirməliyik. Çünki "Ya Allah, ya Allah" deməklə donuz darıdan çıxmır. Mən də azdan-çoxdan istedadı olan adamam. Elə bədii, qəhrəman bir obraz yaradaram ki, burdan vurub İrəvandan çıxar, aləmi dağıdar. Axı bunlar hamısı yalandır. İndi hər şey real ölçülməlidir.

**Müsahibəni AzadliqRadiosu.az saytında oxuya bilərsiniz.**

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



**Hüseynbala Mirələmov Azərbaycan ədəbiyyatının klassikidir?**




**Bəhreyndə şairəni niyə həbsə atdılar?**



**İran Azərbaycanından olan daha iki şairin kitabı Bakıda çap edildi**



Sevinc Pərvanə: **"Leyli - Məcnuna"**



**Moldovoda həbsdə olan azərbaycanlı yazıçı ona təzyiqlər edildiyini deyir**

# "Çamadanda İnternet"i necə əldə etmək olar?

**"Çamadanda internet" layihəsi internetdə açıq mənbədə yerləşdirilib, kim istəsə, onu yükləyə bilər. İndiyəcən onu bir neçə min adam yükləyib. Bunu "Çamadanda internet" layihəsinin rəhbəri Sascha Meinrath AzadlıqRadiosuna müsahibəsində deyir. Layihəni Amerikanın Dövlət Departamentinin maliyyə dəstəyilə "New America Foundation" təşkilatının ekspertləri hazırlayıb.**

Amma Sascha Meinrath bildirir ki, onlar layihənin hansı ölkələrdən yükləndiyindən məlumatsızdırlar.

Sascha Meinrath onu da bildirir ki, onlar layihənin öz amacına sadiq qalmasını istəyirlər. Bu isə - internetə çıxışı olmayan icmalara kömək etməkdir. Bu işi onlar layihənin işə salınacağı yerdə - icmalarla məsləhətləşmə yolu ilə etmək fikrindədirlər. Sascha Meinrath-ın sözlərinə görə, "Çamadanda internet" təbii fəlakət vaxtı kommunikasiya vasitəsinə ehtiyacı olan bölgələrdə, dünyayla başqa heç bir əlaqə vasitəsi olmayan məkanlarda, yaxud demokratik inqilabların baş verdiyi yerlərdə insanlara lazım ola bilər.

Yəni öz kompyuterinə "Çamadanda internet" proqramını yükləyən hər kəs, normal internet xətləri kəsildikdə belə, başqaları ilə ünsiyyət yarada, beynəlxalq şəbəkəyə qoşula bilər.

"Çamadanda internet"i repressiv rejimli ölkələrə necə keçirmək olar? Bu çamadanda notebook, simsiz antenna, CD-lər və s. varsa, yəqin ki, sərhəddə diqqəti cəlb edəcək... Sascha Meinrath-ın buna cavabı odur ki, doğrudan da sərhədi belə avadanlıqlarla keçmək yaxşı ideya deyil: "Amma digər tərəfdən layihəni xüsusi diqqət cəlb etmədən də əldə etmək olar. Onu telefona, CD-yə, flash card-a, yaxud notebook-a yükləmək olar. Onda gərək repressiv hakimiyyətlər bütün bu avadanlıqların ölkəyə keçirilməsinə mane olmağa başlasınlar. Layihəni internetdən də yükləmək olar."

*Bəs "Çamadanda internet" layihəsini istifadə edən, yəni özü üçün ayrıca bir şəbəkə yaradan və ona qoşulan şəxslərin izlənib ələ keçməsi asandırmı?*



Sascha Meinrath

- Əlbəttə, bu səni hər şeydən qoruyan sehrli çubuq deyil, amma belə texnologiyadan istifadə edənləri izləmək də çətindir. Bu layihənin hazırlanması zamanı hərbi texnologiyalardan istifadə edilib. Yəni əgər şəbəkədə bir neçə nəfər varsa, onlardan hansının şəbəkədə olduğunu müəyyənləşdirmək, demək olar ki, mümkün deyil.

Sascha Meinrath deyir ki, hələ ki, texnologiya yenidir və ondan istifadə üçün insanlara treninqlər lazımdır. Amma onun fikrincə, il yarıma layihə geniş kütlələr, hətta yaşlı insanlar tərəfindən də rahat istifadə edilən səviyyəyə çatdırıla bilər.

# Laricani Bakıda hansı mesajları verdi?



İran parlamentinin spikeri Əli Laricani

**İyunun 30-da Azərbaycana rəsmi səfərə gələn İran parlamentinin spikeri Əli Laricani elə həmin gün Bakıda "Hüseyniyə" məscidində dindarlar qarşısında çıxış edib. Deyib ki, hazırda dünyada müsəlmanların birliyi heç vaxt olmadığı qədər vacibdir. Azərbaycana müstəqillik arzulayan Laricani daha sonra İsraili müsəlmanları təhqir etməkdə günahlandırıb. O, fikrini əsaslandırarkən Qüdsdə "Əl-Əqsə" məscidinin divarlarının sökülməsini misal göstərib. Laricani dindarları əmin edib ki, İran Azərbaycanın dövlətçiliyinə hörmətlə yanaşır.**

**«MƏSCİDDƏKİ ÇIXIŞI AZƏRBAYCAN HAKİMİYYƏTİNƏ MESAJ İDİ»**

Yeri gəlmişkən, İran parlamenti sədrinin Fələstin prezidenti Mahmud Abbasın ardınca Azərbaycana gəlməsini təsadüf saymayanlar da var. Atlas Araşdırmaları Mərkəzinin rəhbəri Elxan Şahinoğlu hesab edir ki, Əli Laricaninin Bakıya bu səfərinin məhz iki əsas səbəbi var. Onun fikrincə, bu səbəblərin birini Yaxın Şərqdə, digərini isə Şimalda- Azərbaycan və Ermənistan prezidentlərinin Rusiya prezidentinin vasitəçiliyi ilə görüşdükləri Kazan şəhərində axtarmaq lazımdır:

«Yəqin Tehranda düşünürmüşlər ki, Kazanda İranın maraqlarına uyğun olmayan hər hansı razılaşma əldə edilə bilər. Çünki İranı ən çox qorxudan sülhməramlı qüvvələrin bölgədə yerləşdirilməsidir. Tehran narahatdır ki, həmin sülhməramlı qüvvələrin tərkibində ABŞ və NATO əsgərləri ola bilər və onlar İran sərhəddində yerləşdirilər. Digər tərəfdən, əlbəttə, Azərbaycan-İsrail münasibətlərindən İranın narahatlığı da özünü büruzə verir. Və Laricaninin Bakıdakı çıxışlarının birində İsrailin adını çəkməsi, məncə, Azərbaycan hakimiyyətinə dolayı bir mesajdır. Yəqin ki, rəsmi görüşlərdə bu məsələyə də toxunulub».




Elxan Şahinoğlu

***İlqar Rəsul***

**AzadliqRadiosu.az saytında daimi rubrika:**



# Rusiyada əxlaq normalarına ən çox müsəlmanlar riayət edir


Tatarıstan müsəlmanlarının dini tədbiri-İyun,2011

Rusiya Elmlər Akademiyasının Sosiologiya İnstitutu bütün ölkəni əhatə edən sorğu keçirib. Moskva və Sankt-Peterburq sakinləri də daxil olmaqla 1750 respondent arasında aparılan sorğu zamanı onlara hansı din ardıcıllarının əxlaq normalarına daha çox riayət etməsi haqda sual verilib. Sorğu iştirakçılarının əksəriyyəti bildirib ki, müsəlmanlar mənəvi dəyərlərə daha çox sadiqlik nümayiş etdirirlər. Belə ki, İslam ardıcıllarının aşağı, orta və yüksək mənəvi statusa malik göstəriciləri müvafiq olaraq 17%, 41% və 42% təşkil edib. "İnterfaks"ın yaydığı xəbərə görə, pravoslavlarda bu göstəricilər 30%, 39%, 31%, digər dinlərin ardıcıllarında 46%, 23%, 31%, ateistlərin sırasında isə 32%, 43%, 25%-dir.
Tədqiqatçıların bildirdiyinə görə, kilsələrə və dini toplantılara Rusiya vətəndaşlarının 13 faizi baş çəkir.

# Hansı ölkə əqli qüsurlu insanlara daha rahatdır?


Haiti

«Gallup» yeni araşdırmasına görə, əqli cəhətdən qüsurlu insanlar üçün yaşamağa ən münasib yer Avropadır. Təşkilat dünyanın 112 ölkəsində 1000 nəfər arasında keçirdiyi sorğudan bu qənaətə gəldiyini yazır. Ümumilikdə isə bu 112 ölkədə rəyi soruşulanların 55 faizi deyib ki, yaşadıqları ölkə əqli cəhətdən qüsurlu insanlar üçün yaxşı yerdir. Sorğuya görə, bu sahədə ən aşağı göstərici ( 47 faiz) keçmiş SSRİ ölkələrində və Asiyadadır (46 faiz).
Avropanın özündə isə ən yaxşı vəziyyətin Hollandiyada olduğu qeyd edilir. Bu ölkədə sorğuda iştirak edən əhalinin 91 faizi ölkələrini belə adamlar üçün yaxşı şəraitli ölkə sayır. Yeni Zelandiyada, Almaniyada isə rəyi soruşulanların 90 faizi müsbət cavab verib. Amerika qitəsində isə kanadalılar öz ölkələrini uyğun sayır - 86 faiz. Keçmiş Sovet İttifaqında ən yüksək göstərici Belrusdadır. Rəyi soruşulanların 56 faizi əqli cəhətdən qüsurlu şəxslərin cəmiyyətdə yaxşı qəbul olunduğunu fikirləşir. Ən aşağı göstərici isə Qırğızıstandadır - 32 faiz.
Azərbaycanda isə sorğuda iştirak edənlərin 55 faizi buranın əqli cəhətdən qüsurlu şəxslər üçün yaxşı yer olduğunu deyib. Ermənistanda bu göstərici 37 faiz, Gürcüstanda 53 faiz, Rusiyada isə 48 faiz olub.

***Kəbiran Dilavərli***

# AzadlıqRadiosunda verilişlər:

<u>*Unutmayın:*</u> Siz bu verilişləri canlı dinləyə bilmirsinizsə, istənilən vaxt AzadliqRadiosu.az saytında onların səs yazılışlarına qulaq asa bilərsiniz. Bu, elə də çətin deyil.

| | |
|---|---|
| **İşdən sonra** | **14-24** |
| **Can Bakı** | **İz** |
| **Xüsusi reportaj** | **Panorama** |
| **Qaynar xətt** | **Qafqaz Qovşağı** |
| **Həmyerli** | **Oxu zalı** |
| **Tanınmışlar** | **Hər kəsin haqqı var** |
| **Şəffaflıq** | **Təbriz Ekspress** |

## Daimi rubrikalar




# "Simsiz teleqraf"

## APTEK VƏ NƏZİR QUTUSU




YÜKLƏYİB: YEK OĞLAN

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa, anonimliyi təmin edirik.
**Azərbaycandan:** (050) 213-56-30,
**Xaricdən:** (+420) 602 517 052
**Görüntüləri elektron poçtla da yollamaq olar:**
<u>efir@azadliqradiosu.az</u>

# AzadliqRadiosu.az®

## necə dinləməli...

**24 saat**

**HotBird 13$^0$E**

**Kanalın adı**
**Radio Free Europe/Radio Liberty**
**Pol:** V
**Tezlik:** 12.226 Ghz
**Sürət:** 27.500 MS/s

**TÜRKSAT 42$^0$ E**

**Kanalın adı**
**Azadliq VOA Azeri**
**Pol:** H
**Tezlik:** 11.862 Ghz
**Sürət:** 27.500 MS/s

## Azadlıq Radiosu

## Multimedia

### 250 Plyus (30 iyun):

“İctimai Palatanın
tələbi
qəbul olundu”




## Verilişlərin vaxtı:

| | |
|---|---|
| Səhər proqramı | $08^{00}$-$10^{00}$ |
| Günorta proqramı | $12^{00}$-$13^{00}$ |
| Təkrarlar | $15^{00}$-$16^{00}$ |
| İşdən sonra | $17^{00}$-$19^{00}$ |
| Kontekst | $20^{00}$-$21^{00}$ |
| Gecə proqramı | $22^{00}$-$24^{00}$ |

## Bizimlə əlaqə:

**E-mail:** efir@AzadliqRadiosu.az

**Qaynar Xətt:** **436-77-41**

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30


Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**“Fərqli düşüncə” jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, “Qanun” mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tibilisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email: ferqlidergi@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz